# Azərbaycan Yazıçılar Birliyində görkəmli yazıçı-dramaturq Məmmədhüseyn Əliyevin 100 illik yubileyi qeyd edilib




Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin təşkilatçılığı ilə oktyabrın 23-də AYB-nin Natəvan klubunda yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin 100 illik yubileyi qeyd olunub. Tədbiri giriş sözü ilə AYB-nin katibi İlqar Fəhmi açıb, yubiley iştirakçılarını salamlayıb. Məmmədhüseyn Əliyevin çoxşaxəli yaradıcılığından danışaraq onun Azərbaycan ədəbiyyatında özünəməxsus iz qoyduğunu bildirib və tədbiri aparmaq üçün sözü şair Ağacəfər Həsənliyə verib. O, yubilyarın tərcümeyi-halı barədə ətraflı məlumat verib, yubiley ərəfəsində yazıçının övladları ilə birgə görülən işlərdən danışıb. Onun kitablarının latın qrafikasında nəşri ilə yanaşı 100 illiyi münasibətilə xüsusi buraxılış çap olunduğunu bildirib.

Sonra tənqidçi Əsəd Cahangir çıxış edərək Məmmədhüseyn Əliyevin yaradıcılığı haqqında əhatəli məlumat verib. AYB Lənkəran bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərli öz çıxışında M.Əliyevin Lənkəranda və Lerikdə keçirilən yubiley tədbirlərindən danışıb, bu ərəfədə Lənkəran Dövlət Dram Teatrında iki pyesinin tamaşaya qoyulduğunu qeyd edib.

Sonra filologiya elmləri doktoru, yazıçı Yaşar Rzayev, tanınmış tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusifli, yubilyar haqqında çoxsaylı məqalələrin müəllifi, professor İslam Qəribli, Milli Məclisin Lerik rayonundan seçilmiş deputatı Vasif Qafarov, hüquq elmləri doktoru İbrahim Quliyev, şairlərdən Vaqif Bəhmənli, Adil Cəmil, Fəxrəddin Teyyub, Ağamir Cavad, Şahin Həmid, Mübariz Məsimoğlu, Lerikə Dəstək İctimai Birliyin sədri Arzuman Muradlı, yazıçı Nurəddin Ədiloğlu, tibb elmləri doktoru Rəfiəli Novruzov, filologiya elmləri namizədi Tahir Şirvanlı, "Ədəbiyyat qəzeti"nin şöbə redaktoru, şair Sərvaz Hüseynoğlu, "Xalq qəzeti"nin Lənkəran bölgəsi üzrə müxbiri Əlisəfa Həsənov, "Lerik" qəzetinin baş redaktoru, Əməkdar jurnalist İdris Şükürlü və başqaları çıxış edərək Məmmədhüseyn Əliyevin çoxşaxəli yaradıcılığının müxtəlif məqamlarına toxunublar, onun şeir, publisistika, dramaturgiya sahəsində qələm işlətməklə yanaşı, bədii nəsr sahəsində ardıcıl çalışacaq oxucu yaddaşında iz qoyan irihəcmli romanlar yazdığını qeyd ediblər. Azərbaycan Yazıçılar İttifaqının Lənkəran bölməsinin məsul katibi işləyərkən bölgə yazarlarının bir araya gəlməsində və bölgədə ədəbi mühitin inkişaf etdirilməsində mühüm xidmətləri olduğunu bildiriblər. Onun haqqında xatirələrini bölüşüb mərd, qorxmaz, həqiqəti deməkdən çəkinməyən ədalətli bir insan olduğundan danışıblar.

Sonda söz yazıçının qızı, fəlsəfə elmləri doktoru Sədaqət Əliyevaya və oğlu, həkim Ənvər Rüstəmova verilib. Övladları ailədə və cəmiyyətdə atalarını böyüdən mənəvi xüsusiyyətlərindən danışıb, xoş sözlərə görə çıxış edənlərə və tədbirin təşkilatçılarına dərin təşəkkürlərini bildiriblər. Sonda yubilyar haqqında çıxmış xüsusi buraxılış və yeni nəşr olunan kitabları iştirakçılara paylanıb.

Tədbir xatirə şəkilləri çəkilməklə başa çatıb.

*Sərvaz*